**“Azərbaycan Respublikası və Səudiyyə İnkişaf Fondu arasında Xırdalan şəhərinin su təchizatı və kanalizasiya sisteminin genişləndirilməsi və yenidən qurulması layihəsi üzrə” Kredit Sazişinin təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikası və Səudiyyə İnkişaf Fondu arasında Xırdalan şəhərinin su təchizatı və kanalizasiya sisteminin genişləndirilməsi və yenidən qurulması layihəsi üzrə” 2014-cü il iyulun 3-də Bakı şəhərində imzalanmış Kredit Sazişi təsdiq edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 dekabr 2014-cü il
№ 1152-IVQ

**Azərbaycan Respublikası və Səudiyyə İnkişaf Fondu arasında Xırdalan şəhərinin su təchizatı və kanalizasiya sisteminin genişləndirilməsi və yenidən qurulması layihəsi üzrə**
**KREDİT SAZİŞİ**

Bu Saziş 6 Ramadan, 1434 A.H, müvafiq olaraq 3 iyul 2014-cü il tarixində aşağıdakılar arasında imzalanmışdır:

1) Sədr müavini və İcraçı Direktor cənab Yousef İbrahim Albassam tərəfindən təmsil edilən Səudiyyə İnkişaf Fondu, Ər-Riyad, Səudiyyə Ərəbistanı Krallığı (bundan sonra "Fond" adlandırılacaq),

və

2) "Azərsu" ASC-nin sədri cənab Qorxmaz Hüseynov tərəfindən təmsil edilən Azərbaycan Respublikası (bundan sonra "Borcalan" adlandırılacaq).

**PREAMBULA**

(A) Borcalan bu Sazişin 2-ci cədvəlində təsvir edilmiş "Xırdalan şəhərinin su təchizatı və kanalizasiya sisteminin genişləndirilməsi və yenidən qurulması" layihəsinin (bundan sonra "Layihə" adlandırılacaq) maliyyələşdirilməsinə yardım etmək üçün Kredit ayrılması ilə bağlı Fonda müraciət etmişdir;

(B) Fondun məqsədi inkişaf etməkdə olan ölkələrə öz iqtisadiyyatının inkişaf etdirilməsində yardım göstərmək və onları inkişaf layihələrinin və proqramlarının həyata keçirilməsi üçün lazım olan kreditlərlə təmin etməkdir;

(C) Fond Layihənin əhəmiyyətli olmasına və xoşməramlı Azərbaycan xalqının iqtisadi inkişafı üçün onun faydalı təsirinə əmindir; və

(D) yuxarıdakıları nəzərə alaraq, Fondun Direktorlar Şurası onun 9/106/2051 saylı qərarı ilə aşağıdakı şərtlər və qaydalar əsasında Borcalana Kredit ayrılması haqqında razılığa gəlmişlər:

Bununla əlaqədar, Tərəflər aşağıdakı razılığa gəlirlər:

Maddə I
**Ümumi şərtlər; Anlayışlar**

**Bənd 1.01.** Bu Sazişin Tərəfləri Fondun Direktorlar Şurasının Miladi təqvimlə 26 iyul 1976-cı il tarixinə uyğun gələn Hicri təqvimlə 29 rəcəb 1396-cı il tarixli 11/14 nömrəli Qətnaməsi ilə verilmiş Fondun Kredit Sazişlərinə Tətbiq Edilən Ümumi Şərtlərin bütün müddəalarını həmin müddəalar tam şəkildə burada təsbit olunduğu kimi eyni qüvvə və təsirlə qəbul edirlər (Fondun Kredit Sazişlərinə Tətbiq Edilən Ümumi Şərtlər bundan sonra Ümumi Şərtlər adlandırılacaqdır).

**Bənd 1.02.** Bu Sazişdə, harada istifadə olunmasından asılı olmayaraq məzmunda başqa məna nəzərdə tutulmamışdırsa, Ümumi Şərtlərdə və Preambulada istifadə edilən müxtəlif terminlər orada açıqlandığı kimi müvafiq məna kəsb edir, "Şirkət" dedikdə, Borcalan - "Azərsu" ASC nəzərdə tutulur.

Maddə II
**Kredit**

**Bənd 2.01.** Fond Kredit Sazişinin şərtlər və qaydalarına uyğun olaraq, Borcalana bir yüz otuz bir milyon iki yüz əlli min (131,250,000) Səudiyyə Rialı məbləğində kredit ayırmağa razılaşır.

**Bənd 2.02.** Kreditin məbləği, bu Sazişə əlavə edilən 1-ci cədvəlin şərtlərinə (həmin cədvəl Fond ilə Borcalan arasında əldə olunan razılığa əsasən vaxtaşırı dəyişdirilə bilər) və Səudiyyə İnkişaf Fondunun Kreditləri üzrə ayırmaların Prosedurlarına uyğun olaraq Kredit Hesabından çıxarıla bilər və Layihə üçün tələb olunan mallar və xidmətlər üzrə çəkilən (və ya Fondun razılığı varsa, çəkiləcəkdir) və kredit vəsaitlərindən maliyyələşdirilən xərclərin ödənilməsinə sərf olunmalıdır.

**Bənd 2.03.** Borcalan Kredit vəsaitini yalnız Layihənin icrası üçün lazım olan mallara və xidmətlərə çəkilən xərclərin maliyyələşdirilməsi üçün tətbiq edə bilər. Belə malların və xidmətlərin satınalınması Malların Satınalınması üzrə Qaydalar və İşlərin aparılması üçün Müqavilə bağlanması və Koordinasiya Qrupunun İnkişaf İnstitutu üzvlərinin Məsləhətçilərindən istifadəsinə uyğun olaraq aparılmalıdır. Borcalan kredit vəsaitlərindən maliyyələşdiriləcək işlər üçün hər hansı müqaviləni imzalamamışdan və gələcəkdə ona hər hansı ciddi dəyişikliklər etməmişdən əvvəl Fondun razılığını almalıdır.

**Bənd 2.04.** Kredit vəsaitlərindən istifadənin son müddəti 31.12.2016-cı il və ya Fondun təyin etdiyi daha sonrakı tarix hesab edilir. Fond təyin etdiyi sonrakı tarixi dərhal Borcalana bildirməlidir.

**Bənd 2.05.** Borcalan ayrılan əsas kredit məbləğinin və qalan məbləğin 2% həcmində illik kredit xərci vaxtaşırı olaraq ödəməlidir.

**Bənd 2.06.** Kredit faizi və digər rüsumlar yarımildən bir, hər ilin 15 iyun və 15 dekabr tarixlərində ödənilir.

**Bənd 2.07.** Kreditin müddəti beş (5) il güzəştli müddət daxil olmaqla, iyirmi (20) ildir. Borcalan bu Sazişə əlavə edilmiş 3-cü cədvəldə göstərilən Amortizasiya Cədvəlinə uyğun olaraq Kreditin əsas məbləğini geri ödəməlidir.

## Maddə III
## **Layihənin icrası**

**Bənd 3.01.**

(a) Borcalan Şirkət vasitəsi ilə lazımi səy və səmərəliklə və müvafiq texnologiya (mühəndislik), maliyyə və inzibati təcrübəyə uyğun olaraq Layihəni həyata keçirməlidir və bu məqsəd üçün tələb olunan vəsaitləri, qurğuları və digər vasitələri dərhal təmin etməlidir.

(b) Layihənin həyata keçirilməsi üçün Borcalan Şirkəti Kredit vəsaitinə əlavə olaraq tələb olunan digər vəsaitləri ilə dərhal təmin etməlidir (bu Müqavilənin imzalandığı vaxt Layihənin smeta dəyərindən əlavə olaraq qiymətdə yaranacaq hər hansı bir artımın ödənilməsi üçün tələb olunan vəsaitləri də daxil olmaqla). Bütün bu məbləğlər Fondun məqbul hesab etdiyi şərtlər və qaydalar əsasında təqdim edilməlidir.

**Bənd 3.02.** Borcalan Layihəyə dair planları, spesifikasiyaları, hesabatları, müqavilə sənədləri və tikinti-təchizat cədvəllərini, eləcə də onlara edilmiş dəyişiklik və əlavələri Fond tərəfindən tələb olunan təfsilatla Fonda təqdim etməlidir.

**Bənd 3.03.** Borcalan Layihənin icrasına nəzarət edilməsi üçün ixtisası və təcrübəsi Fond tərəfindən məqbul hesab edilən məsləhətçi-mühəndislər təyin etməlidir.

**Bənd 3.04.** Fond üçün münasib olan şərtlər və qaydalar daxilində Borcalan Layihənin həyata keçirilməsi üçün Fond üçün məqbul hesab edilən podratçıları işə cəlb etməlidir.

**Bənd 3.05.** Borcalan Layihə üzrə onun payına düşən xərcləri ödəmək üçün müvafiq şəkildə illik büdcə ayırmalarını öz üzərinə götürür. Borcalan Layihə üzrə yerli xərcləri ödəməyi öz öhdəsinə götürür.

**Bənd 3.06.** Kredit vəsaiti hesabına idxal olunan malların əldə edilməsi, daşınması və eləcə də onların istismar və ya quraşdırma sahəsinə çatdırılması ilə əlaqədar yaranmış təhlükə hallarının vurduğu ziyanı sığorta etməli və bu cür sığorta üçün hər hansı bir ödəmə Borcalan tərəfindən malların əvəz edilməsi və onların təmiri üçün sərbəst istifadə oluna bilən valyutada edilməlidir.

**Bənd 3.07.** Borcalan Kredit vəsaiti hesabına maliyyələşdirilən avadanlığı və xidmətləri yalnız Layihənin həyata keçirilməsinə sərf etməlidir.

**Bənd 3.08.** Borcalan üzərinə götürür:

a) Layihə üzrə işlərin gedişatının (xərclər də daxil olmaqla) qeydə alınması, Kredit vəsaiti hesabına maliyyələşdirilən avadanlıq və xidmətlərin müəyyən olunması və Layihədə onların istifadəsinin göstərilməsi, Layihədə nəzərdə tutulan bütün əməliyyatların, resursların və xərclərin əks olunması üçün müvafiq uçotun aparılmasını;

b) Kreditə dair məqsədlər ilə bağlı Fondun akkreditə edilmiş nümayəndələrinin səfər etməsi, Layihənin işinin, Kredit vəsaiti hesabına maliyyələşdirilən malların və xidmətlərin və hər hansı aidiyyəti olan məlumat və sənədlərin yoxlanılması üçün bütün münasib imkanların yaradılmasını;

c) Layihə üzrə Kredit vəsaitinin xərclənməsi və bu vəsait hesabına maliyyələşdirilən mallar və xidmətlər ilə əlaqədar bütün lazımi məlumatların Fondun tələbi ilə Fonda təqdim olunması.

**Bənd 3.09.** Borcalan Layihənin həyata keçirilməsi üçün lazım olan torpağın alınması və ona lazımi hüquqların verilməsi istiqamətində müvafiq tədbirlər görməlidir.

Maddə IV

**Xüsusi şərtlər**

**Bənd 4.01.**

(a) Borcalan ilə Fond təsdiq edirlər ki, dövlət əmlakının girov saxlanılması (borca görə) yolu ilə heç bir başqa xarici borc bu Kredit üzərində hər hansı bir üstünlüyə malik deyildir. Bu məqsədlə, Borcalan öhdəsinə götürür ki, Fond digər şəkildə razılaşmayana qədər, hər hansı bir xarici borcun təminatı üçün Borcalanın əmlakı girov saxlanılarsa, bu cür girov saxlanılması, fakt əsasında və Fond üçün heç bir xərc yaratmadan, Kreditin əsas məbləğinin, Kredit Faizinin və Kredit üzrə digər ödəmələrin ödənilməsinə bərabər və proporsional qaydada təminat verir və əmlakın hər hansı bu cür girov saxlanılması zamanı bunun üçün aşkar müddəa təsbit olunacaqdır.

(a) Bu bəndin a) paraqrafında nəzərdə tutulanlar aşağıdakı hallara tətbiq edilmir:

i) mülkiyyətin satın olaraq alınması zamanı onun alıcılıq qiymətinin ödənilməsinə təminat vermək üçün əmlakın girov saxlanılması,

ii) yarandığı tarixdən sonra geri ödənilmə müddəti bir ildən çox olmayan borcun ödənilməsini təmin edən və ticarət mallarının satışından əldə olunan vəsaitlə ödənilən ticarət mallarının girov saxlanılması və yaxud,

iii) Bank əməliyyatlarının normal gedişatı zamanı meydana çıxan və geri ödənilmə müddəti bir ildən çox olmayan borcun ödənilməsinə təminat vermək üçün əmlakın girov saxlanılması.

**Bənd 4.02.** Borcalan Layihəni müvafiq texniki standartlara uyğun həyata keçirir və bu məqsədlə lazım olan vəsaitin ayrılması üçün zəruri tədbirlər görür.

**Bənd 4.03.** Fondun Layihənin maliyyələşdirilməsi üçün etdiyi yardımı göstərmək məqsədi ilə Borcalan Layihədə nəzərdə tutulan obyektlərin birinin üzərində görsənən yerdə münasib ölçüdə

beton və ya digər müvafiq metaldan hazırlanmış Xatirə Lövhəsinin hazırlanmasını öz öhdəsinə götürür.

**Bənd 4.04.** Borcalan Layihənin həyata keçirilməsi üçün cavabdeh Şirkət, Departament və İdarələrin və yaxud hər hansı bir tərəfin mühasibatlıq təcrübəsini, əməliyyatlarını, resurslarını və xərclərini əks etdirməklə, uçot-sənədləşdirmə işlərini müvafiq şəkildə aparmalıdır.

**Bənd 4.05.** Layihə başa çatdıqdan sonra Son Müddət Tarixindən sonrakı on iki ay ərzində və ya Fondun bu məqsədlə təyin etdiyi daha gec vaxtda Borcalan Layihənin işinin yekunlaşdırılması ilə bağlı Hesabat hazırlamalı və Fonda təqdim etməlidir. Hesabat Fondun istədiyi formada olmalı və Layihənin icrası, ilkin əməliyyatlar, çəkilən xərclər və bundan əldə olunan səmərələr, Kredit Sazişi daxilində Borcalan tərəfindən öhdəliklərin icrası və Kredit hesabına qarşıya qoyulan məqsədlərə nail olunması məsələləri bu Hesabatda müfəssəl şəkildə öz əksini tapmalıdır.

Maddə V

**Fondun hüquqi müdafiə vasitələri**

**Bənd 5.01.** Ümumi Şərtlərin 6.02 bəndində göstərilmiş məqsədlər üzrə aşağıdakı əlavə hallar f) paraqrafına uyğun olaraq müəyyənləşdirilir:

i) Bu paraqrafın ii) alt paraqrafına əsasən:

A) Müqavilənin şərtlərinə görə, Borcalanın Layihənin maliyyələşdirilməsi üçün ona ayrılmış hər hansı bir kredit vəsaitinin çıxarılması hüququ tam və qismən və ya qrant dayandırıla, ləğv və ya xitam edilə bilər və yaxud,

B) hər hansı bir kredit əvvəl əldə edilmiş razılığa əsasən kredit sazişinin başaçatma müddətindən əvvəl geri ödənilməlidir.

ii) Borcalan Fondu qane edən şəkildə sübut etsə ki, A) bu cür dayandırılma, ləğv və ya xitam Borcalanın bu cür sazişə əsasən hər hansı öhdəliyini yerinə yetirməməsinə görə meydana gəlməmişdir və B) Layihə üçün Borcalan bu Sazişə əsasən onun öhdəliklərinə uyğun olan şərtlərlə digər mənbələrdən lazımi vəsait əldə edə bilir, - belə olan halda bu paraqrafın i) alt paraqrafı tətbiq olunmur.

**Bənd 5.02.** Ümumi Şərtlərin 7.01 bəndində göstərilən məqsəd üzrə d) paraqrafına uyğun olaraq aşağıda göstərilən hallar, yəni bu Sazişin 5.01 bəndinin (i) (B) paraqrafında göstərilən hallar baş verir.

Maddə VI

**Qüvvəyəminmə tarixi – Başaçatdırma**

**Bənd 6.01.** Bu Sazişin imzalandığı tarixdən etibarən 6 ay müddəti Ümumi Şərtlərin 12.04 bəndində nəzərdə tutulan məqsədlər üçün müəyyənləşdirilir.

Maddə VII

**Borcalanın nümayəndəsi, ünvanlar**

**Bənd 7.01.** Ümumi Şərtlərin 11.03 bəndində nəzərdə tutulan məqsədlər üzrə Borcalanın maliyyə naziri onun nümayəndəsi təyin edilir.

**Bənd 7.02.** Ümumi Şərtlərin 11.01 bəndində nəzərdə tutulan məqsədlərə uyğun olaraq, aşağıdakı ünvanlar müəyyənləşdirilir:

**FOND ÜÇÜN**

Səudiyyə İnkişaf Fondu P.O.Box 50483
Ər-Riyad 11523
SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞI
**Faks:** +966-11-4647450
**Telefon:** +966-11-2794000
**Elektron ünvan:** info@sfd.gov.sa
**BORCALAN ÜÇÜN**
**1 - Maliyyə Nazirliyi**
Səməd Vurğun - 83 Bakı, AZ 1022
AZƏRBAYCAN RESPUBLİKASI
**Faks:** +(994-12)404 47 20/21
**Elektron ünvan:** office@maliyye.gov.az
**2 - "Azərsu" Açıq Səhmdar Cəmiyyəti**
Moskva pros. 67 Bakı, AZ 1012
AZƏRBAYCAN RESPUBLİKASI
**Faks:** +(994-12) 430 01 50
**Elektron ünvan:** office@azersu.az

Təsdiq olunur ki, səlahiyyətli nümayəndələr vasitəsilə müvafiq şəkildə təmsil olunan Tərəflər bu Sazişi Azərbaycan Respublikası Bakı şəhərində, yuxarıda qeyd edilmiş gün, ay və il olmaqla, ərəb dilində, 2 əsl nüsxədə imzaladılar və Ümumi Şərtlərin ərəb dilində hazırlanmış bir nüsxəsi Borcalana verilmişdir.

**Azərbaycan Respublikası**
**adından**
**Qorxmaz HÜSEYNOV**
**"Azərsu" ASC-nin sədri**

**Səudiyyə İnkişaf Fondu**
**adından**
**Yousef İbrahim ALBASSAM**
**Sədr müavini və icraçı direktor**

*Cədvəl 1*

**Kredit Vəsaitlərinin çıxardması**

(A) Aşağıda göstərilən cədvəl Kredit vəsaiti hesabına maliyyələşdirilən əşyaların kateqoriyalarını, hər kateqoriya üzrə kreditin məbləğini və hər bir kateqoriyada nəzərdə tutulan xərclərin faizini göstərir:

| | Kateqoriya | Ayrılan kreditin məbləği (Səudiyyə Rialı ilə) | Maliyyələşdirilən xərclərin faizi |
|---|---|---|---|
| 1 | Su anbarları üzrə tikinti işləri və boruların yerləşdirilməsi, su şəbəkələri (Layihənin 1-ci hissəsi) | 108,000,000 | Ümumi xərclərin 50 %-i |
| 2 | Məsləhət xidmətləri (Layihənin 3-cü hissəsi) | 10,250,000 | Ümumi xərclərin 100 %-i |
| 3 | Nəzərdə tutulmayan xərclər | 13,000,000 | |
| | **Cəmi:** | **131,250,000** | |

(B) A) paraqrafında verilən şərtlərə baxmayaraq, aşağıdakı hallarda çıxarmalar olmayacaq:

1) bu Sazişin imzalanma tarixindən əvvəl edilən xərclər üzrə;

2) borcalanın ərazisində mallar və ya xidmətlər və yaxud idxal, istehsal, satınalma və təchizat üçün vergi rüsumları alındıqda.

C) Kreditin ayrılmasına və ya A Paraqrafındakı cədvəldə verilmiş ödəniş faizlərinə baxmayaraq, əgər Fond dəqiq hesablamalardan sonra müəyyən kateqoriya üçün ayrılmış vəsaitin bu kateqoriyada ümumi xərclərin razılaşdırılmış faizini ödəməyə kifayət etməcəyini müəyyən etsə, Fond Borcalana bildirməklə:

(i) Fondun fikrincə, başqa bir kateqoriya üçün nəzərdə tutulmuş və ya ayrılmış kredit vəsaitinin digər xərcləri ödəməyə ehtiyacı qalmırsa, bu Kateqoriya üzrə yaranan çatışmazlığın aradan qaldırılması üçün tələb olunan məbləğ əsasında əlavə vəsait ayıra bilər və ii) əgər yenidən ayrılan vəsait hesab edilən çatışmazlığı tam ödəmirsə, bu kateqoriya üzrə bütün xərclər ödənilənə qədər, bu kateqoriya üzrə sonrakı vəsait çıxarılmasını davam etmək məqsədi ilə, bu kimi xərclər üzrə ayırmaları azaldacaq.

*Cədvəl 2*

**Layihənin Təsviri**

Layihənin məqsədi Bakı şəhərindən 10 km aralıda yerləşən Xırdalan şəhərinin 2035-ci ilə kimi tələbatı qarşılamaq üçün su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması və genişləndirilməsi üzrə infrastrukturun inkişaf etdirilməsindən, bələdiyyənin və ətraf mühit xidmətlərinin təkmilləşdirilməsindən ibarətdir.

Layihə aşağıdakı hissələrdən ibarətdir:

1) Su sisteminin tikintisi:

A. Ümumi həcmi 60,000 m3 olan 3 rezervuarın tikintisi

B. Ümumi uzunluğu 178.5 km, ölçüsü 110-1000 mm olan əsas su boruları və su şəbəkələrinin tikintisi.

2) Kanalizasiya sisteminin tikintisi.

3) Məsləhətçi xidmətlərə daxil olan tender sənədlərinin hazırlanmasının və layihəyə nəzarətin nəzərdən keçirilməsi.

Layihənin ümumi dəyəri 75 milyon ABŞ dolları məbləğində qiymətləndirilir və bu, 281.25 milyon SR-ə ekvivalentdir. Layihənin 2015-ci ilin sonunda başa çatdırılması gözlənilir.

*Cədvəl 3*

**Amortizasiya Cədvəli**

| Ödəmə | Ödəniş tarixi | Ödəmə məbləği (Səudiyyə Rialı ilə) |
|---|---|---|
| 1 | 2 | 3 |

| | | |
|---|---|---|
| 1. | 15 dekabr 2019 | 4,375,000 |
| 2. | 15 iyun 2020 | 4,375,000 |
| 3. | 15 dekabr 2020 | 4,375,000 |
| 4. | 15 iyun 2021 | 4,375,000 |
| 5. | 15 dekabr 2021 | 4,375,000 |
| 6. | 15 iyun 2022 | 4,375,000 |
| 7. | 15 dekabr 2022 | 4,375,000 |
| 8. | 15 iyun 2023 | 4,375,000 |
| 9. | 15 dekabr 2023 | 4,375,000 |
| 10. | 15 iyun 2024 | 4,375,000 |
| 11. | 15 dekabr 2024 | 4,375,000 |
| 12. | 15 iyun 2025 | 4,375,000 |
| 13. | 15 dekabr 2025 | 4,375,000 |
| 14. | 15 iyun 2026 | 4,375,000 |
| 15. | 15 dekabr 2026 | 4,375,000 |
| 16. | 15 iyun 2027 | 4,375,000 |
| 17. | 15 dekabr 2027 | 4,375,000 |
| 18. | 15 iyun 2028 | 4,375,000 |
| 19. | 15 dekabr 2028 | 4,375,000 |
| 20. | 15 iyun 2029 | 4,375,000 |
| 21. | 15 dekabr 2029 | 4,375,000 |
| 22. | 15 iyun 2030 | 4,375,000 |
| 23. | 15 dekabr 2030 | 4,375,000 |
| 24. | 15 iyun 2031 | 4,375,000 |
| 25. | 15 dekabr 2031 | 4,375,000 |
| 26. | 15 iyun 2032 | 4,375,000 |
| 27. | 15 dekabr 2032 | 4,375,000 |
| 28. | 15 iyun 2033 | 4,375,000 |
| 29. | 15 dekabr 2033 | 4,375,000 |
| 30. | 15 iyun 2034 | 4,375,000 |
| | Cəmi: | 131,250,000 |